*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 389-395*

https://doi.org/10.62837/2025.1.389

**ƏMİNƏ BABA QIZI QƏDIMOVA**
**Pedaqogika üzrə fəlsəfə doktoru,**
**dosent**
**Azərbaycan Dövlət Mədəniyyət**
**və İnsəsənət Universiteti**
**E:mail:** aminaqadimova@admi.edu.ru.

# PEDAQOJİ ÜNSİYYƏTİN FORMALAŞDIRILMASI YOLLARI

**Açar sözlər:** pedaqoji proses**,** pedaqoji ünsiyyət. ünsiyyət problem, ünsiyyətin formalaşdırılması, müəllimn kommunikativ imkaları.

**Ключевые слова:** педагогический процесс, педагогическое общение**,** проблема общения, формирование общения, культура общения, процесс социализации.

**Key words:** pedagogical process, pedagogical communication, communication problem, formation of communication communication culture, socialization process.

Təlim və tərbiyə proseslərinin təşkilində müəllimlərlə uşaqlar arasında ünsiyyətin rolu böyükdür. Müəllim şagirlərlə ünsiyyətdə olduqda o, nəinki ictimai funksiyanın daşıyıcısı, eyni zamanda pedaqoji prosesin tərkib hissəsini təşkil edən bir şəxsiyyət kimi çıxış edir. Müəllimin şagirlərlə ünsiyyəti tərbiyə prosesinin idarə edilməsi kanalı kimi iki funksiyanı yerinə yetirir: informasiya və kompensasiya funksiyalarını. İnformasiya mübadiləsi prosesi iki istiqamətdə cərəyan edir: subyektdən, idarə edəndən, müəllimdən obyektə, idarə olunana, məktəbliyə və əksinə, obyektdən subyektə ötürülən informasiya. Bilavasitə şəxsiyyətlərarası ünsiyyət prosesində müəllim tərbiyə etdiyi adam haqqında zəngin informasiya alır və özü də məktəblilərə külli miqdarda informasiya ötürür. Beləliklə, müəllim şagird şəxsiyyətinin ayrı-ayrı çalarları haqqında zəngin məlumata malik olur, onun müsbət və zəif cəhətlərini müəyyənləşdirir və zəif cəhətləri islah etmək üçün zəruri tədbirlər görür. Bütün bunların nəticəsində müəllim hər bir şagirdin və sonra isə bütün sinfin fəaliyyətini proqnozlaşdıra bilir. Həyat təcrübəsindən**,** təlim və tərbiyə proseslərində fəaliyyətindən və adamlarla ünsiyyətinin xüsusiyyətlərindən asılı olaraq, hər bir şagirdə eyni hadisəyə müxtəlif fikirlər yaranır. Müəllim bu fikirləri təhlil edir, ümumiləşdirir və onların qeyri-obyektiv, düzgün olmayanlarını yeniləri ilə əvəz edir: yəni müəllim şagirdin informasiya mübadiləsi prosesini idarə edir, düzgün istiqamətləndirir. Müəllimin ən mühüm keyfiyyətlərindən birini onun pedaqoji ünsiyyətə yiyələnməsi, pedaqoji fəaliyyət zamanı ondan səmərəli istifadə etməsi təşkil edir. Məllum olduğu kimi, pedaqoji ünsiyyət müəllimin gənclərlə təlim-tərbiyə prosesində həyata keçirdiyi peşə ünsiyyətidir. Bu keyfiyyətə malik olan müəllim

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 389-395*

gənclərlə qarşılıqlı əlaqəni yaratmağı, ünsiyyətə girməyi, onların fəaliyyətinə rəhbərlik etməyi bacarır. Ona görə də müəllimin pedaqoji ünsiyyətə yiyələnməsi pedaqoji fəaliyyətin səmərəliliyi üçün ən zəruri şərtlərdən birini təşkil edir. Təhsilin, məktəbin humanistləşdirilməsini pedaqoji ünsiyyəti lazımi səviyyədə qurmadan həyata keçirmək mümkün deyildir. Ona görə də məktəblərimizin indiki inkişafı dövründə müəllimlərimizin yüksək pedaqoji ünsiyyətə yiyələnməsinin rolu inkaredilməz dərəcədə artmışdır. Psixoloji tədqiqatlar zamanı sübut olunmuşdur ki, uşaqlarla ünsiyyətə girmək qabiliyyəti müəllimin onlara məhəbbətinə əsaslanmalıdır. Uşağı sevməyən və ya sevə bilməyən müəllimin onunla ünsiyyəti alınmayacaqdır. Görkəmli pedaqoq V.A.Suxomlinskinin dediyi kimi. Uşağı sevməyi öyrənmək isə heç bir tədris müəssisəsinin, heç bir kitabın köməyi ilə mümkün deyildir. Bu cür qabiliyyət insanın ictimai həyatdakı iştirakı prosesində, onun başqa adamlarla qarşılıqlı münasibəti prosesində inkişaf edir. Məhz buna görə də pedaqoji fəaliyyətin təbiətindən doğan uşaqlarla gündəlik ünsiyyət bu cür məhəbbətin yaranmasına, dərinləşməsinə, insana inamın formalaşmasına imkan verir. Şübhəsiz, burada müəllimin pedaqoji ünsiyyətin mahiyyəti, onun sosial-psixoloji mexanizmləri haqqında biliklərə yiyələnməsi də zəruridir. Lakin təkcə müəllimin elmlərin əsası və təlim-tərbiyə işinin metodikası barədə bilikləri pedaqoji fəaliyyətin səmərələliyini təmin edə bilməz. Bütün bu biliklər uşaqlarla canlı, bilavasitə ünsiyyət prosesində həqiqi bacarıqlara çevrilə bilər. Deməli, pedaqoji ünsiyyət pedaqoji fəaliyyətin səmərəliliyi üçün şərt olmaqla yanaşı, həmin fəaliyyətin özündə formalaşır. Ona görə də pedaqoji ünsiyyətin formalaşdırılmasının ən əsas yollarından biri müəllimin pedaqoji fəaliyyətə girişməsi, onun həyata keçirilməsidir. Şübhəsiz, bu zaman pedaqoji ünsiyyət haqqında müvafiq biliklərin olması müəllimin işini asanlaşdırır, pedaqoji ünsiyyətin həyata keçirilməsi imkanlarını genişləndirir. Ona görə də müəllim pedaqoji fəaliyyət zamanı pedaqoji ünsiyyətin hansı konkret vəzifələri həyata keçirməli olduğunu dəqiq bilməlidir. Əks halda onun bu sahədəki işi kor-koranə, dərk olunmamış xarakter daşıyır. Psixoloji-pedaqoji ədəbiyyatdan və məktəb təcrübəsindən məlum olduğu kimi, pedaqoji fəaliyyət zamanı ünsiyyət aşağıdakı istiqamətlərdə təzahür edir: birincisi, təlim vəzifələrinin yerinə yetirilməsi vasitəsi kimi; ikincisi, tərbiyə prosesinin sosial-psixoloji cəhətdən təmin olunması kimi; üçüncüsü, təlim və tərbiyənin müvəffəqiyyətini təmin edən müəllim və uşaqların qarşılıqlı əlaqəsinin təşkili tərzi kimi. Məlum olduğu kimi, təlim prosesində üç mühüm vəzifə həyata keçirilir: öyrədici, tərbiyəedici və inkişafetdirici. Bu vəzifələrinin hər birinin yerinə yetirilməsində pedaqoji ünsiyyət özünəməxsus yer tutur. Müəllimin bunları bilməsi və nəzərə alması zəruridir. Müəllim çalışmalıdır ki, pedaqoji ünsiyyətin həmin tələblərini yerinə yetirə bilsin. Bunun üçün müəllimin bu tələbləri həyata keçirməyə can atması xüsusilə vacibdir. Bu cür cəhd onda müvafiq pedaqoji ünsiyyət bacarıqlarının formalaşması ilə nəticələnir. Həmin vəzifələrin həyata keçirilməsi ilə əlaqədar pedaqoji ünsiyyətə verilən tələblərə nəzər salaq:

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2025
Səh. 389-395

təlimin öyrədici vəzifəsini həyata keçirərkən ünsiyyət aşağıdakıların təmin olunmasına şərait yaratmalıdır: şagirdlərlə real psixoloji təmin olunması; təlimin müsbət motivləşməsinin formalaşdırılması; kollektiv, idraki axtarıcılıq və birgə fikirləşmək üçün psixoloji şəraitin yaradılması. Təlimin tərbiyələndirici vəzifəsini yeririnə yetirərkən pedaqoji ünsiyyətin köməyi ilə tərbiyəvi və pedaqoji münasibətlər, müəllimlə uşaqlar arasında psixoloji təmas qaydaya salınır və bu təlimin müvəffəqiyyətinə əsaslı təsir göstərir; şəxsiyyətin idrak istiqaməti formalaşır; psixoloji maneələr aradan qaldırılır; şagird kollektivində şəxsiyyətlərarası münasibətlər formalaşır. Təlimin inkişafetdirici vəzifəsini həyata keçirərkən pedaqoji ünsiyyətin köməyi ilə şəxsiyyətin özünütəhsilin və özünütərbiyəsi üçün pedaqoji şərait yaradılmış olur.

Gənc müəllimin edaqoji ünsiyyətindəki bu çətinliklər müxtəlif amillərlə bağlı ola bilər. Bu cür amillərin "psixoloji amillər" adlandırırlar. Pedaqoji ünsiyyət sahəsində geniş tədqiqat aparmış V.A.Kan-Kalik bu cür "psixolojimaneələr"i aşağıdakı şəkildə xarakterizə edir:

-ustanovkaya sahib olmamaq "maneəsi": müəllim sinfə maraqlı dərs demək niyyəti ilə gəlir, sinif isə laqeyddir, diqqətsizlik və pərakəndəlik göstərir, nəticədə təcrübəsiz müəllim hirslənir, əsəbləşir və i.a.;

-fəaliyyətə təzəcə başlayan müəllimlər üçün sinifdən qorxmaq "maneəsi" də xarakterik haldır; adətən, onlar materialı yaxşı bilir, dərsə yaxşı hazırlaşırlar, lakin şagirdlərlə bilavasitə təmasda olmaq fikri onları "qorxuzur", yaradıcıqlarını bir növ buxovlayır və i.a.;

-təmasın olmaması "maneəsi": müəllim sinifə daxil olur, bu zaman şagirdlərlə dərhal və əməli şəkildə qarşılıqlı əlaqə yaratmaq əvəzinə bir növ "avtonom" hərəkət etməyə başlayır(məsələn, yazı taxtasında izahat yazır və s.);

-ünsiyyət funksiyasının məhdudlaşdırılması "maneəsi": müəllim yalnız ünsiyyətin məlumatvermə funksiyasını nəzərə alır, onun qarşılıqlı təsir, sosial-perseptiv funksiyalarına əhəmiyyət vermir;

-sinif haqqında neqativ ustanovkanın yaranması "maneəsi". Bu cür ustanovka həmin kollektivdə işləyən başqa müəllimlərin fikrinə və ya özünün pedaqoji pedaqoji uğursuzluğununa müvafiq olaraq yarana bilir;

-həmin siniflə və ya şagirdlə keçmiş neqativ ünsiyyət təcrübəsi ilə bağlı "maneə";

-pedaqoji səhv etməkdən qorxmaq"maneəsi"(dərsə keçikməkdən. vaxtdan düzgün istifadı edə bilməməkdən, şagirdləri düzgün qiymətləndirə bilməməkdən qorxmaq və i.a.);

-təlqin "maneəsi". Gənc müəllim başqa müəllimin fəaliyyətini, ünsiyyət tərzini yamsılamağa başlayır, lakin başqasının ünsiyyət üslubunu mexaniki şəkildə öz fərdi pedaqoji fəaliyyətinə keçirməyin mümkün olmadığını başa düşmür.

Bütün bunları nəzərə alaraq, gənc müəllim birinci növbədə özünün şagirdlərlə ünsiyyətində bu kimi halların, “maneələrin” olub-olmamasına diqqət yetirməli, onları aradan qaldırmağa cəhd göstərməlidir. Sonra müəllim şagirdlərlə ünsiyyətinin hansı cəhətlərinin onlar tərəfindən bəyənilməsini, hansı cəhətinin isə onları təmin etməməsini müəyyənləşdirməli, təhlil etməlidir. Ünsiyyət zamanı bu cür maneələrin olmaması üçün müəllim müvəffəqiyyətli qarşılıqlı əlaqəyə açıq-aşkar mane olan stepeotip davranışından (mentopluq, özünü şagirdlərdən uzaq tutmaq, didaktizm və s.) uzaqlaşmağa çalışmalıdır. Müəllim daim belə suala cavab verməyə çalışmalıdır: “Şagirdlər məni necə görürlər?”. Bu cür təhlilin həqiqi vəziyyətə daha uyğun olmasına cəhd göstərmək lazımdır. Nəhayət, müəllim çalışmalıdır ki, şagirdlərlə özünün münasibətini bir növ aydınlaşdırmağa meyli olmasın, əksinə, onların inkişafının necə getdiyini təhlil etsin. Müəllim maneənin yaranmasına səbəb olan arzuolunmaz cəhdləri aradan qaldırmağa çalışmalıdır. Bütün bunlarla yanaşı şagirdlərlə ünsiyyət prosesinin daha səmərəli getməsi və bu ünsiyyətin uşaqların psixi vəziyyətində baş verən daimi inkişafa uğun olması üçün bir sıra tələblərə ciddi əməl edilməsi lazım gəlir. Həmin tələblərə əməl etməyə çalışmaqla müəllim bir növ pedaqoji ünsiyyətə yiyələnməyə, pedaqoji fəaliyyətin səmərəliliyi üçün zəruri olan bu qabiliyyətin özündə formalaşmasına şərait yaradır. Məktəb təcrübəsi göstərir ki, çox zaman pedaqoji ünsiyyətin pozulması müəllimin öz şagirdlərinə (eləcə də valideynlərə) qarşı diqqətsiz olması ilə bağlı olur. Adətən, ünsiyyətdə olduğun adam sənin onu saydığını, ona qarşı diqqətli olduğunu duyarsa, qarşılıqlı ünsiyyət alınır və səmərəli xarakter daşıyır. Ona görə də bu cəhəti nəzərə alaraq, müəllim ünsiyyətdə olduğu şəxsə qarşı həddindən artıq diqqətli olmağa çalışmalıdır. Laqeydlik, qarşıdakının mənliyinə toxunmaq ünsiyyəti mənasız bir işə çevirir, bu zaman nəzərdən qaçırılan hər bir cəhət, ünsiyyətdə olan şəxsə qarşı düzgün olmayan hərəkət ünsiyyət prosesinin normal getməsinə mane olur.

Müəllimin pedaqoji ünsiyyəti səmərəli təşkil etməsi üçün onun bu sahədə zəruri biliklərə yiyələnməsi və yeri gələndə onlardan istifadə edə bilməsi tələb olunur. Ona görə də pedaqoji ünsiyyəti düzgün təşkil etmək üçün müəllim həmin prosesin səmərəli təşkili ilə bağlı məlumatları yadda saxlayıb, yada salmağı bacarmalı, başqa sözlə özünün kommunikativ hafizəsini inkişaf etdirməlidir. Məsələn, müəllim lazım gəldikdə sinfin və ya ayrı-ayrı şagirdlərin səmərəli ünsiyyət tonunu yada salmağı bacarmalı, öz fəaliyyətində müsbət hal kimi tətbiq etdiyi yol və vasitələrdən istifadə etməyə çalışmalıdır. Pedaqoji ünsiyyətdə əsas cəhətlərdən biri onun perseptiv cəhəti, müəllimin və şagirdin bir-birini anlaması, qavramasıdır. Bu sahədə xüsusilə müəllimdən ciddi iş tələb olunur. Müəllimin pedaqoji fəaliyyəti müvəffəqiyyətlə yerinə yetirməsi üçün yüksək perseptiv qabiliyyətə yiyələnməsi vacibdir. Məhz buna görə də müəllim şagirdləri müşahidə etməyi, onları bir növ “oxumağı”, hiss etməyi bacarmalıdır. Bunun üçün isə müəllim öz müşahidəçiliyini inkişaf etdirməlidir. Müşahidəçiliyin inkişafı müəllimə ünsiyyət prosesini izləmək,

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 389-395*

bir növ onu idarə etmək imkanı verir. Müəllim sadəcə olaraq şagirdləri müşahidə etmək və faktları qeydə almaqla kifayətlənməməlidir. Ünsiyyətin səmərəli olması üçün o, şagirdlərin davranışını (onların pozalarını, özünütutma tərzlərini, jestlərini, mimkalarını, kobudluq və itaətlərliliyini və s.) təhlil etməyi də bacarmalıdır. Bu cür bacarıq müəllimə şagirdlərlə ünsiyyətini tənzim etmək imkanını verir. Nəticədə o, ünsiyyətdə baş verə biləcək qüsurları aradan qaldırır. Müəllim bu bacarıqdan çıxış edərək öz ünsiyyətini şagirdin davranışı ilə əlaqələndirə bilir. Adətən, ünsiyyət o zaman daha çox xarakter daşıyır ki, ünsiyyətdə olduğun adamla əks-əlaqə yaranmış olsun, onun sənin necə başa düşdüyünü hiss edə bilsin. Məhz buna görə müəllim pedaqoji ünsiyyət zamanı bütün diqqətini, fikrini ünsiyyətdə olduğu şagirdə (və ya ünsiyyətdə olduğu müəllim yoldaşına, valideynə) yönəltməyi bacarmalıdır. Başqa sözlə, ünsiyyətin səmərəli olması üçün müəllim bu prosesdə ünsiyyətdə olduğu adam haqqında düşünməlidir. Belə olduqda ünsiyyət qarşılıqlı xarakter daşıyır və əsas məqsəddən yayınma halları aradan qalxır. Göründüyü kimi, pedaqoji ünsiyyəti həyata keçirmək və onun səmərəliliyinə nail olmaq müəllimdən zəruri bacarıqlara yiyələnməyi tələb edir. Bu cür bacarıqların formalaşması bir tərəfdən gələcək müəllimin necə hazırlanmasından, ona verilən, zəruri nəzəri bilik sistemindən, digər tərəfdən, onların konkret pedaqoji fəaliyyətə girişməsindən asılıdır. İkinci halda da müəllimə düzgün istiqamətin verilməsi, onun fəaliyyətinin tənzim və idarə edilməsi lazım gəlir. Ona görə də həmin sahədə məktəblərdə müəllimlərin təcrübə mübadiləsinin keçirilməsinin faydalılığı inkaredilməzdir. Bütün bunlarla yanaşı müəllim özünün bu sahədəki cəhdindən, bir növ özünütərbiyəsindən də çox şey asılıdır. Əgər müəllim düzgün pedaqoji ünsiyyətə yiyələnməyə can atarsa və bunun üçün müvafiq məşqlərdən istifadə etməyə cəhd göstərərsə həmin sahədə xeyli üstünlüyə nail ola bilər. Pedaqoji ədəbiyyatda peşəkar pedaqoji ünsiyyətə yiyələnməklə əlaqədar bu cür məşqlərə-treniqlərə xüsusi yer verilməlidir. Həmin sahə ilə maraqlanan müəllimlər A.A.Leontyevin, V.A.Kap-Kalinkin və b. məlum əsərlərinə müraciət edə bilərlər. Təcrübə göstərir ki, ünsiyyət sahəsində özünütərbiyənin təşkili bir sıra şərtlərə əməl olunmasını tələb edir. Bunlara aşağıdakıları aid etmək olar: öz üzərində bu cür məşq aparmaq işinə tam ciddi münasibət bəsləmək; daimi tənqidi özünütəhlilin olması; öz üzərində sistematik iş aparmaq; tərəf müqabilinin işinə diqqət yetirmək və s. Psixoloji ədəbiyyatda peşəkar-pedaqoji ünsiyyətin əsaslarınıa yiyələnmək üçün iki qrup mümarisə sistemindən istifadə olunmasının zəruriliyi qeyd olunur. Birinci silsilə mümarisələr qrupuna kommunikativ qabiliyyətlərin inkişafına, ünsiyyəti idarə etmək vərdişlərinin yaranmasına kömək edən, pedaqoji ünsiyyət ünsürlərinə praktik olaraq yiyələnməyə yönəldilmiş mümarisələri **aid etmək olar.**

İkinci silsilə mümarisələr qrupuna mövcud pedaqoji şəraitdə bütün ünsiyyət sisteminə yiyələnməyə yönəldilmiş mümarisələri aid etmək olar.

Bu məqalədə hər iki qrup mümarisələri bütün təfərrüatı ilə əhatə etmək mümkün olmadığına görə biz yalnız onların adlarını, nəyə yönəldiyini qeyd etməklə kifayətlənirik. Mümarisələrin konkret mahiyyətinə gəldikdə, onlarla yuxarıda adlarını qeyd etdiyimiz psixoloqların əsərlərində tanış olmaq mümkündür. Burada yiyələnməsi zəruri olan əsas bacarıq və vərdişləri sadəcə olaraq sadalamaqla məhdudlaşdırırıq. Birinci silsilə mümarisələr qrupunun köməyi ilə aşağıdakı pedaqoji ünsiyyət bacarıq və vərdişlərinə yiyələnmək mümkündür: ümumi şəraitdə təbii və ardıcıl hərəkət etmək bacarığının yaranması; pedaqoji fəaliyyət zamanı əzələ sərbəstliyinin formalaşması; sinifdə emosional rahatlığın yaranmasına nail olmaq; ixtiyarı diqqət, müşahidəçilik bacarıq və vərdişlərinin inkişafı; sadə ünsiyyət vərdişlərinin inkişafı; təşəbbüskarlığı idarə edə bilmək; intonasiya texnikasına yiyələnmək; ünsiyyət sisteminin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi; mimika və pantomimikanın inkişafı; ünsiyyət prosesinin təşkili; fərdi ünsiyyət stilini aşkara çıxarmaq; uşaqların emosional reaksiyalarının öyrənilməsi; nitqin texnikası və müstəqilliyi, onun ifadəliliyi və emosionallığı; məlumatların obrazlı verilməsi; qısa dialoqlar üzrə mümarisə; jestlərin seçilməsi; pedaqoji ünsiyyətin idarə olunması və s.

İkinci silsilə mümarisələr qrupunun köməyi ilə aşağıdakı pedaqoji ünsiyyət bacarıq və vərdişlərinə yiyələnmək mümkündür; pedaqoji müşahidəçiliyə yiyələnmək (həmin sahədə məşq etmək); dərs prosesində müəllimin müdaxiləsini tələb edən konkret anları ayıra bilmək bacarığının inkişafı; öz hərəkətlərini qiymətləndirə bilmək bacarığının inkişafı; pedaqoji məsələnin və onun həlli zamanı müəllimin hərəkətlərinin təhlili; məqsədyönlü pedaqoji məsələlərin həlli; mövcud şəraitdə müəllimin hərəkəti; pedaqoji təxəyyülün inkişafı və s. Şübhəsiz, qeyd olunan keyfiyyətlərə yiyələnmək üçün müəllimin ciddi məşq etməsi, başqa sözlə bütün varlığı ilə pedaqoji fəaliyyətə can atması, onun həyata keçirilməsi lazımdır.

**Məqalənin aktuallığı:** Müasir şəraitdə dünyanın mənzərəsi psixoloji baxımdan ritual ünsiyyətdə sosial, peşəkar, yaxud fərdlərarası rolu oynamaq vacibdir. Belə vəziyyət ritual davranış üçün ünsiyyət şəraitinin dərk edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən ünsiyyət məsələlərinin tarixi dövründən başlayaraq inkişaf dinamikasının öyrənilməsi həmişə aktuallıq kəsb etmişdir.

**Məqalənin elmi yeniliyi:** Məqalədə pedaqoji ünsiyyət problemi məktəblilərin idrak fəaliyyətinin inkişafında müəllim gənclərin ünsiyyət prosesində istifadənin imkanları müəyyənləşdirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi:** Məqalədə tövsiyə edilən ünsiyyət problemləri ilə maraqlananlar, ali və orta ixtisas məktəblərinin müəllimləri, psixoloqlar, magistrantlar istifadə edə bilərlər.

### İstifadə edilmiş ədəbiyyat

1.Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Bakı. 2009
2.Bayramov Ə. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı. 1981.

3.Seyidov S., Həmzəyev M. Psixologiya. Bakı. 2006.
4.İnsan beyninin fəaliyyəti və psixi proseslər. Bakı. 1989.
5.Əliyev B.Təhsildə şəxsiyyət problemi. Bakı. 2008.
6.Qədirov Ə. Yaş psixologiyası. Bakı. 2002.
7.Kunitsyna.Şəxsiyyətlərarası ünsiyyət. Samk-Peterburq. 1999
8.Freyd Z. Psixoanalizə giriş. Bakı. 1917

**А.Кадимова**

**Способы формирования педагогического общение**

**РЕЗЮМЕ**

В данноой статье автор говарит о педагогическом общении как об одном из фактторов, обеспечивающих успех в деятельности образовательного учреждения. Педагогическое общение преподавателя и ученика влияет на уровень учебно-воспитательной работы в образовательных учреждениях.

Автор обосновывает роль общения в жизни человека, показывает влияниеобщения на формирование личности. Также в статье рассматриваются конфлкты и пути их преодоления. Фвтор, говоря об особенностяхпедагогического содержания, такжеобращает внимание на актуальные проблемы в сфере общения в образовательных учереждениях. В ссатье даны эффективные предложения в процессе общения.

**A.Gadimova**

**Ways forming pedagogical communication**

**SUMMARY**

In this atricle, the author discusses pedagogical communication as one of the factors ensuring success in theactivities of educational institutions/ Pedagogicalcommunication between a teacher and a student affects thelevelof training and upbringing work in educational institutions.

The author substantiates the role of communication in human life, shows theinfluence of communication in theformation of presonality. The article also contains contradictionsin the area among young people and ways to eliminate them. The author, along with discussing the characteristics of pedagogical content, alsi drws attention to the existing problems in the field of communicationin educational institutions in the current conditions/ The articlegives effective suggestions in the work on the communication process.

**Rəyçi:** f.ü.e.dok., dos. V.M.Adilov